*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received:12.10.2024***
***Kabul tarihi |Accepted:22.12.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Hacı Qasımlı**

***https://orcid.org/0000-0001-8246-1959***
*PhD, Baku State University, Faculty of Information and Document Management library information resources management department, Azerbaijan, hacı_qasimli@list.ru*

**Daşqin Məhəmmədli**

***https://orcid.org/0000-0002-6875-8091***
*Doctor of Philosophy in History, Faculty of Economics and Social Sciences, Baku State University, Azerbaijan, dashqin.muhammedli@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Qasımlı, H. & Məhəmmədli, D. (2024). Turizm sahəsi üzrə "İnformasiya tələbatı" konsepsiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4588-4595.

# Turizm sahəsi üzrə "İnformasiya tələbatı" konsepsiyası

***Xülasə***

*Turizm sahəsinin informasiya təminatının mövcud vəziyyətini öyrənmək, bu sahəyə dair sənəd axınının tədqiqini aparmaq, turizm sahəsi üzrə informasiya tələbatçılarını müəyyən etmək, bu sahə üzrə sənəd axınının gələcək inkişaf modelini təkmilləşdirmək kitabxanaşünaslığın və biblioqrafiyaşünaslığın qarşısında duran əsas vəzifələrdən biridir. Məqalədə turizmin kitabxana-informasiya təminatı sahəsində informasiya tələbatının öyrənilməsi zamanı meydana çıxan ümumi problemlərin həlli məqsədilə görüləcək işlər qeyd edilmiş, informasiya tələbatı anlayışı, onun elmi və nəzəri cəhətdən izahı göstərilmişdir. Turizm sahəsi üzrə informasiya tələbatı məsələsi təhlil edilərkən ilk növbədə bu sahənin informasiya tələbatının genezisinə, onun insan tələbatları sistemində rolu araşdırılmışdır.*

***Açar sözlər:*** *Kitabxana, sənəd axını, turizm, informasiya mənbəyi, informasiya tələbatı*

BY NC Creative Commons Licence

# The concept of 'Information Demand' in the tourism sector

***Abstract***

*Analysing the current state of information provision in the tourism sector, studying document flow in this field, identifying information consumers in the tourism sector and improving the future development model of document flow in this field are some of the main tasks facing librarianship. The article summarises the work that needs to be done to solve the common problems that arise during the study of information needs in the field of information provision in the field of librarianship and tourism, and presents the concept of information need and its scientific and theoretical explanation. In analysing the issue of information demand in the tourism sector, the formation of information demand in this sector and its role in the system of human needs are examined.*

***Keywords:*** *Library, document flow, tourism, information source, information demand*

## Giriş

İnformasiya, məlumat və ya biliklərin, insanın anlaması və istifadə etməsi üçün təşkil edilən formasıdır. İnformasiya, müxtəlif kontekstlərdə fərqli anlamlar daşıya bilər, lakin ümumiyyətlə, müəyyən bir mövzu, vəziyyət və ya obyekt haqqında əldə edilən məlumatların toplanması və təqdim olunması kimi başa düşülür. Müasir cəmiyyətin həyatı kommunikasiya sistemləri ilə çox bağlıdır. Bu sistem çərçivəsində cəmiyyətin informasiya tələbatının ödənilməsi sahəsində böyük həcmli işlər aparılır. Professional baxımdan bu prosesdə müxtəlif sosial institutlar iştirak edir ki, onların da əsas funksiyası sənədlərlə məqsədyönlü iş aparmaqdan ibarətdir. Faydalı informasiyanın yaradılması və səmərəli yayıması ilə elmi təşkilatlar, informasiya mərkəzləri və başqa orqanlar məşğul olur.

## 1. Oxucuların və istifadəçilərin informasiya tələbatı

Oxucuların və istifadəçilərin informasiya tələbatı, onların müəyyən mövzularla, məsələlərlə və ya fəaliyyət sahələri ilə əlaqədar olaraq ehtiyac duyduqları məlumatları ifadə edir. İnformasiya tələbatı fərqli mühitlərdə və fərqli insanlar arasında dəyişə bilər, çünki hər kəsin ehtiyacları, maraqları və məqsədləri fərqlidir. İstifadəçilərin informasiya tələbatını anlamaq, onlara daha yaxşı xidmət göstərmək və məlumatı doğru şəkildə təqdim etmək üçün vacibdir (İsmayilov & Khalafova, 2023a).

## 2. Turizm sahəsi üzrə informasiya tələbatının ödənilməsində əsas meyarlar

Turizm sahəsi üzrə informasiya tələbatının ödənilməsində əsas meyar bu sahə üzrə sənəd axının öyrənilməsidir. Turizm sahəsi üzrə sənəd axını oxucuların sorğuları üzrə informasiya axtarışını təmin edən mütəxəssislərin, bələdçilərin, biblioqrafın, informasiya tələbatçılarının və kitabxanaçıların peşə fəaliyyətinin obyektidir. Axın həcmcə qeyri-məhdud, məkan baxımından çox

geniş yayılmış və bəşəriyyətin tarix boyu yaratdığı sərvətləri əhatə edir. Axın alim və mütəxəssislər, yaradıcı insanlar, müxtəlif səviyyəli təşkilatlar, nəşriyyatlar və yayım müəssisələri tərəfindən zənginləşdirilir və əhalinin müxtəlif qrupları tərəfindən istifadə olunur (İsmayilov, 2022). Turizm sahəsi üzrə sənəd axını-daim inkişaf edən, yeniləşən, məzmun etibarilə bir-biri ilə əlaqədar olan sənədlərdir və bizi əhatə edən xarici aləm haqqında biliyin mühafizəsi, toplanması və ötürülməsinin ən yaxşı vasitəsidir. Turizm sahəsi üzrə sənəd axını informasiya cəmiyyətinin əsas elementi hesab edilir. Peşəkar məsələlərin effektiv həlli üçün mütəxəssis sənəd axınının inkişaf qanunauyğunluqlarını və strukturunu bilməlidir. O, sənəd axınında dinamik prosesləri xarakterizə edən göstəricilərin müqayisəsi və hesablanmasına dair yenilikləri bilməlidir. Sənəd axınının tətbiqi tədqiqatlarının nəticələri iki əsas istiqamətdə istifadə oluna bilər (İsmayılov & Gasimli, 2023). Turizm sahəsi üzrə informasiya tələbatı məsələsi təhlil edilərkən ilk növbədə bu sahənin informasiya tələbatının genezisinə, onun insan tələbatları sistemində mövqeyinə nəzər salmaq lazımdır. Bildiyimiz kimi, həm fərdin, həm ictimai qrupun və eləcə də bütün bəşəriyyətin həyat prosesində bir sıra tələbatlar meydana çıxır. Bunlardan bir qrupu insanın bilavasitə bioloji xislətindən irəli gəlir (qidaya, suya, qışda istiliyə, yayda sərinə və s. tələbat) (İsmayilov; Khalafova, 2024a). Digərləri isə məhz maddi tələbat deyildir və ya maddi tələbatlarla dolayısı ilə bağlıdır. Bunlara sosial yardıma, həmrəyliyə, cəmiyyətlə inteqrasiya olunmağa, rəğbətə və s. olan tələbatdır. İnformasiya tələbatı da ikinci qrupa aid edilir (İsmayilov & Bayramova, 2022). İnsanın lazımi informasiya əldə etmək sahəsində fəaliyyəti şəxsiyyətin fəallığının aparıcı göstəricilərdən biridir. Şəxsiyyətin həmin istiqamətdə fəaliyyətini informasiya tələbatı fəaliyyəti də adlandırmaq olar. Müşahidələr göstərir ki, insanın peşə fəaliyyəti nə qədər inkişaf edər və mürəkkəbləşərsə, onun informasiya tələbatı da bundan asılı olaraq inkişaf edərək mürəkkəbləşər. Belə xüsusiyyətlər turizm və ətraf mühitin mühafizəsi sahəsində xüsusilə nəzərə çarpır. Məsələn, Azərbaycanda insanların ətraf mühitin mühafizəsi üzrə fəaliyyətə cəlb olunması nisbətən gec, müasir zamanlarda meydana çıxmışdır (Əliyev, 2004). Ümumilikdə turizm üzrə informasiya tələbatının və xüsusən də onun vacib tərkib hissəsi olan sənəd-informasiya tələbatının əhəmiyyətli əlamətlərdən biri bu tələbatın obyektiv və ya subyektiv olmasıdır (İsmayılov, 2007). Tələbatçının informasiya tələbatının obyektiv və subyektiv olmasının arasındakı fərqi müqayisə yolu ilə müəyyən etmək olar. Belə bir fərqi müəyyənləşdirmək üçün insanın turizm sahəsi üzrə informasiya barəsində təsəvvürlərini təhlil etmək və bunun əsasında konkret informasiyanın bu şəxsə nə qədər zəruri olduğunu müəyyənləşdirmək tələb olunur. Belə bir təhlil aparmaq bir sıra hallarda xeyli vaxt və

zəhmət tələb edir(İsmayilov & Khalafova, 2024b). Bu xüsusilə turizm üzrə geniş və mürəkkəb informasiya tələbatına malik olan alim və yüksək ixtisaslı mütəxəssislərə daha çox aiddir. Belə bir təhsillə məşğul olan şəxslərin informasiya tələbatı öyrənilməsi üçün də əhəmiyyəti böyükdür. Bütün yuxarıda qeyd edilənlər sübut edir ki, informasiya tələbatı informasiya fəaliyyətini stimullaşdıran amildir (İsmayilov & Khalafova, 2022). Turizm sahəsi üzrə kitabxana-informasiya tələbatının öyrənilməsində mütəxəssislərin də mühüm rolu vardır. XXI əsrdən başlayaraq cəmiyyətin informasiyalaşdırılması, turizm sahəsində yeni informasiya texnologiyalarının tətbiqi, bu sahə üzrə yeni istiqamətlərin formalaşması, dünyaya inteqrasiya, beynəlxalq əlaqələrin genişlənməsi ilə sahə üzrə sənəd axınında intensivləşmə müşahidə edilməyə başlamışdır (Ismayilov & Gasimli, 2022). Məqalənin hüquqi aspekti haqqında danışsaq onu qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən 2018-ci il 21 sentyabr tarixində “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” fərman imzalanmışdır. Həmin tarixdə “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Əsasnamə” si də təsdiq edilmişdir. Həmin Əsasnamədə qeyd edilir ki, Agentliyin əsas vəzifələrindən biri gəlmə turizminin və daxili turizmin Azərbaycan Respublikasında inkişafının məqsədli proqramlarını hazırlamaq, ölkə ərazisində turizm infrastrukturunun və sənayesinin, həmçinin Qoruqların inkişafına, turizm zonaları və turizm xidməti sahələrinin yaradılmasına investisiya cəlb olunması üçün müvafiq tədbirlər görmək; Azərbaycan Respublikasının beynəlxalq səviyyədə turizm mərkəzinə çevrilməsi məqsədi ilə müvafiq təşviqat işini aparmaq; Azərbaycan Respublikasının turizm brendini formalaşdırmaq və təşviq etmək; tabeliyindəki qurumlar vasitəsilə turizm xidmətlərinin təkmilləşdirilməsini təmin etmək; turizm sahəsində mövcud vəziyyətin, gələcək inkişaf istiqamətlərinin, həmçinin perspektivlərinin müəyyən edilməsi üçün elmi tədqiqat və araşdırmalar aparmaq; turizm sahəsində mövcud vəziyyətin və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə imkan verən informasiyaları sistemləşdirmək, bu sahəyə dair məlumatları toplamaq, turizmin informasiya təminatını təkmilləşdirmək və həmin məlumatlardan istifadəni və onların qanuna uyğun olaraq mühafizəsini təşkil etməkdir.

Turizm sahəsində informasiya tələbatının ödənilməsində əsas meyarlar aşağıdakı kimi müəyyən edilə bilər: Dəqiqlik və düzgünlük: Verilən informasiya doğru və etibarlı olmalıdır. Bu, turistlərin düzgün qərarlar qəbul etməsi və təhlükəsizliklərini təmin etməsi üçün vacibdir. Təhlükəsizlik: İnformasiya, yerli qanunvericiliyə və təhlükəsizlik qaydalarına uyğun olmalıdır. Bu, turistlərin yerli mühitə uyğun davranışlarını təmin etmək məqsədi ilə vacibdir. Aydınlıq və sadəlik:

Məlumat, istifadəçilər üçün sadə və anlaşılan olmalıdır. Bu, turistlərə məlumatı asanlıqla əldə etməyə və lazımi tədbirləri görməyə imkan verir. Əhatəlilik: Turizm məlumatı əhatəli olmalı, təyinat nöqtələri, nəqliyyat vasitələri, mədəniyyət, yerli adət-ənənələr və digər vacib mövzular barədə məlumatlar təqdim edilməlidir. Əlçatanlıq: İnformasiya müxtəlif kanallar vasitəsilə asanlıqla əldə edilə bilməlidir, məsələn, internet, mobil tətbiqlər, broşürlər, məlumat mərkəzləri və s. Fərdiləşdirilmiş xidmət: Turistlərə daha yaxşı xidmət göstərmək üçün fərdiləşdirilmiş məlumatlar və tövsiyələr təqdim edilməlidir. Məsələn, müəyyən bir turistik marşrutun şəxsi maraqlara uyğun təklif edilməsi. Bu meyarlar, turizm sektorunda informasiyanın səmərəli şəkildə təqdim olunmasına kömək edir, həmçinin turistlərin məmnuniyyətini artırır və turizm təcrübəsini daha asan və təhlükəsiz edir.

## 3. Respublikanın kitabxana-informasiya müəssisələrində turizm sahəsinə dair ədəbiyyatın statistikası

Respublikanın kitabxana-informasiya müəssisələrində turizm sahəsinə dair həm yerli dildə həm də, xarici dillərdə müxtəlif adda sənədlər öz əksini tapmışdır.

**M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasının elektron kataloq sistemində turizm sahəsinə dair əks olunan ümumi sənəd-informasiya resurslarının statistikası (2000-2021-ci illər üzrə)**

*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

| İllər (2000-2021) | Monoqrafiya | Məqalə | Dövrü mətbuat materialı |
|---|---|---|---|
| 2000 | 1 | 1 | - |
| 2001 | 7 | 8 | - |
| 2002 | 11 | 2 | |
| 2003 | 18 | 2 | 1 |
| 2004 | 5 | 20 | - |
| 2005 | 15 | 12 | - |
| 2006 | 65 | 125 | 1 |
| 2007 | 95 | 59 | 1 |
| 2008 | 164 | 67 | 1 |
| 2009 | 138 | 540 | - |

| | | | |
|---|---|---|---|
| 2010 | 144 | 541 | - |
| 2011 | 109 | 1065 | - |
| 2012 | 149 | 728 | - |
| 2013 | 141 | 906 | - |
| 2014 | 162 | 1028 | - |
| 2015 | 121 | 1320 | - |
| 2016 | 187 | 1377 | - |
| 2017 | 166 | 999 | 2 |
| 2018 | 111 | 438 | - |
| 2019 | 30 | 361 | 5 |
| 2020 | 12 | 136 | - |
| 2021 | 2 | 53 | - |
| 2022 | 8 | 57 | - |
| 2023 | 9 | 69 | - |
| **CƏMİ** | **646** | **9914** | **11** |

M. F. Axundov adına Milli Kitabxananın elektron kataloq sistemində turizm sahəsinə dair 2000-ci ildə bir kitab və bir məqalə, 2001-ci ildə səkkiz məqalə və yeddi monoqrafiya, 2002-ci ildə on bir monoqrafiya, iki məqalə, 2003-cü ildə on səkkiz monoqrafiya, iki məqalə və bir dövrü mətbuat materialı, 2004-cü ildə iyirmi məqalə, beş monoqrafiya, 2005-ci ildə on beş monoqrafiya, on iki məqalə, 2006-cı ildə altmış beş monoqrafiya, yüz iyirmi beş məqalə və bir dövrü mətbuat materialı, 2007-ci ildə doxsan beş monoqrafiya, əlli doqquz məqalə və bir dövrü mətbuat materialı, 2008-ci ildə yüz altmış dörd monoqrafiya, altmış yeddi məqalə və iki dövrü mətbuat materialı, 2009-cu ildə beş yüz qırx məqalə, yüz otuz səkkiz monoqrafiya, 2010-cu ildə beş yüz qırx bir məqalə, yüz qırx dörd monoqrafiya, 2011-ci ildə min altmış beş məqalə, yüz doqquz monoqrafiya, üç dövrü mətbuat materialı, 2012-ci ildə yeddiyüz iyirmi səkkiz məqalə, yüz qırx beş monoqrafiya, 2013-cü ildə doqquzyüz altı məqalə, yüzqırx bir monoqrafiya, 2014-cü ildə min iyirmi səkkiz məqalə, yüz altmış iki monoqrafiya, 2015-ci ildə min üçyüz iyirmi məqalə, yüz iyirmi bir monoqrafiya, 2016-cı ildə min üç yüz yetmiş yeddi məqalə, yüz səksən yedii monoqrafiya, 2017-ci ildə doqquz yüz doxsan doqquz məqalə, yüz almış altı monoqrafiya, iki dövrü mətbuat materialı, 2018-ci ildə dördyüz otuz səkkiz məqalə, yüz on bir monoqrafiya, 2019-cu ildə üçyüz altmış bir

məqalə, otuz monoqrafiya, beş dövrü mətbuat materialı, 2020-ci ildə yüz otuz altı məqalə, on iki monoqrafiya, 2021-ci ildə əlli üç məqalə və iki monoqrafiya əks olunmuşdur ki bu da turizm sahəsinə dair sənəd resurslarının tələbatının artmasına zəmin yaradır (İsmayilov & Gasimli, 2023).

İnformasiya tələbatçıları, turizm sahəsində məlumatı tələb edən və istifadə edən şəxslərdir. Onlar turizmin müxtəlif aspektlərində (turistlərin qərar vermə prosesindən tutmuş, turizm müəssisələrinin idarə edilməsi və inkişafına qədər) kritik rol oynayırlar. İnformasiya tələbatçılarının turizm sahəsindəki rolu aşağıdakı aspektlərdə özünü göstərir: Turistlərin qərar qəbul etmə prosesinə dəstək. Məlumatın əhəmiyyəti: Turistlər, səyahət etməzdən əvvəl müxtəlif məlumatlara ehtiyac duyurlar. Bu məlumatlar məkanın cəlbediciliyi, qiymətlər, təhlükəsizlik vəziyyəti, hava şəraiti, nəqliyyat imkanları və digər detalları əhatə edir. İnformasiya tələbatçıları bu məlumatları əldə etmək üçün müxtəlif mənbələrdən (internet, kitablar, bülletenlər və s.) istifadə edirlər. Qərar vermə: Məlumatın tələbatçılarına təqdim edilməsi, turistlərin təyinat yeri seçimi, yerləşmə, nəqliyyat və digər xidmətlərin seçilməsi kimi vacib qərarları daha asan və düzgün şəkildə vermələrinə kömək edir.Turizm sənayesində tədqiqat və inkişaf. Turizm müəssisələrinin tələbatı: Turizm sahəsində fəaliyyət göstərən müəssisələr, müştəri məmnuniyyəti, bazar trendləri, rəqabət mühiti və digər faktorlar haqqında məlumat əldə etməlidirlər. Bu məlumatlar turizm xidmətlərinin inkişafı, marketinq strategiyalarının qurulması, yeni məhsulların təqdim edilməsi və ya mövcud xidmətlərin təkmilləşdirilməsi üçün vacibdir. İnformasiya tələbatçılarının analitik rolu: Turizm müəssisələri, bazar araşdırmaları və statistik məlumatlarla bağlı analizlər həyata keçirmək və qərarları məlumatlara əsaslanaraq qəbul etmək üçün informasiya tələbatçılarından faydalanır.

**Nəticə**

Bu sahə üzrə informasiya tələbatının inkişafında əsas rolu ixtisasçı mütəxəssislər təşkil edir. Turizmin kitabxana-informasiya təminatı sahəsində informasiya tələbatının öyrənilməsi zamanı əsas problemlərdən biri də mütəxəssislərin peşəkar informasiyaya olan əlçatarlığının operativ şəkildə təşkil edilməməsidir. Bu problemin yeganə həlli yolu informasiyanın analitik işlənməsi zamanı meydana gələn ikinci dərəcəli sənədlərin yaradılması hesab olunur. Respublikada turizmin kitabxana informasiya təminatının tədqiq edilməsi üzrə informasiya tələbatının formalaşmasında bəzi Ali təhsil müəssisələri ilə yanaşı, turizm müəssisələri də mühüm rol oynayır. Respublikada bu istiqamətdə yaranan boşluqları aradan qaldırmaq üçün M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasında, Azərbaycan Milli Elmlər Akdemiyasının Mərkəzi Elmi Kitabxanasında (AMEA MEK), bəzi ali məktəb kitabxanalarının fondlarında turizmə dair ümumi sənəd-informasiya

resurslarının kompleks şəkildə tədqiqini aparamaq və bu sahənin fəaliyyətini genişləndirmək lazımdır.

**Ədəbiyyat Siyahısı**

Əliyev, Z. H. (2004). Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir. *Kitabxanaşünaslıq və biblioqrafiya*, 1, 82-92.

Ismayılov, X. İ. & Gasimli, H. H. (2023) Study of the document flow on the field of tourism in the national library of Azerbaijan named after M. F. Akhundov (Based on the analysis of "Annual Azerbaijan Bibliography" and "New books: an annotated bibliographic index"). *Akademik Tarih ve Düşünce Dergisi*, *6* (10), 2467-2474.

Ismayilov, N. I. & Khalafova, S.A. (2022b) Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience).*GRANI Journal*, 25, 2, 22-28.

Ismayilov, N. I. & Khalafova, S. A. (2023a). On the typology of document-information resources in the field of economy. *Universidad Y Sociedad, 15* (6), 224-232.

Ismayilov, N. I. & Bayramova, İ. (2022). Methodology of Research and Study of Document Flow in the Field of Tourism (Based on Experience from Local Libraries).*GRANI Journal*, 25, 3, 70-76.

Ismayilov, N. I. (2022). Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice). *Ukraine, Dnipropetrovsk: Scientific and Theoretical Almanac Grani*, *1* (26), 38-43.

Ismayilov, N. I., & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal*, 25, 6, 16-22.

İsmayılov, X. İ. (2007). *Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı.* X. İ. İsmayılov, N. İ. İsmayılov. *Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, ali məktəblərarası elmi məqalələr məcmuəsi*, 7, 318-320.

İsmayılov, N. & Khalafova, S. (2024a) Stages of development of documentary resources from language studies in Azerbaijan. *Scientific and theoretical almanac Grani*, *27*(2), 70-75. https://doi.org/10.15421/172433.

İsmayılov, N. & Khalafova, S. (2024b) Traditional and electronic information resources of the National Archives Administration of the Azerbaijan Republic. *Scientific and theoretical almanac Grani*, *27* (3), 44-48. https://doi.org/10.15421/172448.